*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 mart 2017-ci il № 19 (2136) Qiymәti 25 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1999-cu ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1982-1998-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2017-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2017-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 mart 2017-ci il.

## “Dağlıq Qarabağ münaqişəsinin həlli üçün var gücümüzlə çalışacağıq”

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həddindən artıq uzanıb.*

AZƏRTAC xəbər verir ki, bu fikri ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta jurnalistlərə açıqlamasında deyib.

Səfir bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli çox uzanıb. Bu problem danışıqlar yolu ilə həll edilməlidir. Amerika Birləşmiş Ştatları ATƏT-in Minsk Qrupunun həmsədri kimi bu istiqamətdə öz səylərini göstərir. Digər həmsədrlərlə birlikdə səylərimizi artırırıq ki, bu münaqişə həll edilsin. Bu yaxınlarda həmsədrlərin bölgəyə səfəri planlaşdırılır. Münaqişənin həlli üçün var gücümüzlə çalışacağıq.

# Biz qalib gələcəyik!..



*Silahlı Qüvvələrimizdə böyük islahatlar həyata keçirildi. Bunların nəticələri hamı kimi məni də sevindirdi. Təkcə Bakıda deyil, təmas xəttinə yaxın ərazilərdə də yeni hərbi hissələrin istifadəyə verilməsi, Ali Baş Komandanın, Müdafiə nazirinin döyüş bölgələrinə gəlməsi, əsgərlərlə səmimi söhbətlər aparması şəxsi heyətin mənəvi hazırlığında mühüm əhəmiyyətə malik oldu. Xalqın orduya inamı kifayət qədər yüksəldi.*

Ordumuz ötən ilin aprelində düşmənin irimiqyaslı təxribatının qarşısını aldı. Ağır itkilər verən düşmən mühüm əhəmiyyətli ərazilərdən geri çəkildi. Bu döyüşlər Azərbaycan əsgərinin həm döyüş, həm də mənəvi hazırlığının səviyyəsini təsdiqlədi. Düşmən də gördü ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə qadirdir.

Aprel döyüşləri vaxtı çağırışçı idim. Xalqın ordunu bu səviyyədə dəstəkləməsi, ordu ilə xalqın bu səviyyədə birliyi biz yeniyetmələrin vətənpərvərlik ruhunu coşdurdu. Hərbi xidmətdə aprel döyüşlərinin iştirakçıları kimi xidmət edəcəyimizə söz verdik. O döyüşlər haqqında çox eşitmişdik, televiziya verilişlərinə baxmışdıq, qəzetlərdən, internetdən məqalələr oxumuşduq. Əsgərlərimizin yüksək döyüş hazırlığı səviyyəsi bir həqiqətin təsdiqi idi: Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu vardır.

İndi əsgərəm. Artilleriyaçıyam, tuşlayıcıyam. Hərbi ixtisasımı qəlbən sevirəm. Xidmət etdiyim müddətdə ixtisasımı mükəmməl öyrənməyə, mənimsəməyə çalışmışam. Nail olduqlarımla özümü güclü hesab edirəm. Belə bir ordunun əsgəri olmağımla qürur duyuram: mən Azərbaycan əsgəriyəm!..

Vətənimizi sevirik də, qoruyuruq da. Torpaqlarımızı işğaldan biz azad edəcəyik. Bu amalla xidmət edirik. Əsgər Çingiz Qurbanovun qəhrəmanlığı gənclərimizə, bu sıradan biz əsgərlərə əsl örnəkdir. Hərbi andda deyildiyi kimi, lazım gələrsə, biz də Vətən naminə şəhid olmağa hazırıq...

Mən də, əsgər yoldaşlarım da bilirik ki, hərbi xidmət intizamdan başlayır. Biz də hərbi nizamnamələrin tələblərini, komandirlərimizin əmr və göstərişlərini sözsüz yerinə yetiririk.

Müasir müharibələrdə artilleriyanın da üzərinə məsuliyyətli vəzifələr düşür. Sülh danışıqları baş tutmasa, Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Cəbrayıl rayo-nunun Cocuq Mərcanlı kəndində əsaslı tikintiyə başlanıb. Cocuq Mərcanlılar doğma yurdlarına qayıdacaq. Bu, başlanğıcdır. Bu ovqatı yaxın vaxtlarda işğaldan azad edəcəyimiz bütün kəndlərimizin əhalisi yaşayacaq...

Mən əsgərəm. Hərbi xidmətim başa çatanda mən də tərxis olunacam. Qalib ordunun əsgəri kimi tərxis olunmaq istərdim. Bu, əsgər yoldaşlarımın hamısının istəyidir.

Biz qalib gələcəyik! Bu inamla xidmət edirik!..

**Əsgər**
**Rustam UMAROV,**
**"N" hərbi hissəsi**

# Azərbaycanın Müdafiə naziri Böyük Britaniyanın Müdafiə Nazirliyinin nümayəndə heyəti ilə görüşüb

*Martın 9-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyinin beynəlxalq siyasət üzrə direktoru Nik Qurrun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Bakıda Azərbaycan və Böyük Britaniya Müdafiə nazirlikləri arasında növbəti qərargah danışıqlarının keçirilməsinə dair məsələlərin əsas müzakirə mövzusu olduğu görüşdə ölkələrimiz arasında hərbi təhsil, xüsusilə də Silahlı Qüvvələrimizin nümayəndələrinin "Hərbi ingilis dili kursu"nda iştirakı barədə geniş fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, ildən-ilə bu kursda iştirak edən zabitlərimizin sayı artır və bu, çox önəmlidir.

Regiondakı hazırkı vəziyyət barədə qonaqlara ətraflı məlumat verən Müdafiə naziri vurğulayıb ki, Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlarda tutduğu qeyri-konstruktiv mövqeyi beynəlxalq və regional sülh və təhlükəsizlik üçün ciddi təhdid yaradır.

2016-cı ilin sentyabrında general-polkovnik Zakir Həsənovun Londonda keçirdiyi səmərəli görüşləri xatırladan N.Qurr qeyd edib ki, həmin səfərdən sonra ölkələrimiz arasında hərbi əməkdaşlıq yüksələn xətlə inkişaf edir.

Azərbaycanın NATO-nun Əfqanıstanda keçirdiyi missiyada iştirakını yüksək qiymətləndirən qonaq vurğulayıb ki, Böyük Britaniya ölkəmiz ilə hərbi əlaqələrin daha da möhkəmləndirilməsində maraqlıdır.

N.Qurr xüsusi qeyd edib ki, Böyük Britaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımaqla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında, beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinin tərəfdarıdır.

Bundan əlavə, görüşdə hərbi, hərbi-texniki sahədə əməkdaşlığın perspektivləri, regional, dəniz, enerji resurslarının təhlükəsizliyi, terrorizmə qarşı birgə mübarizə və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto
Natiq İSAYEVİNDİR**

# Azərbaycan-Fransa hərbi əlaqələrinin daha da genişləndirilməsi məsələləri müzakirə edilib



*Martın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez ilə görüşüb.*

Azərbaycan ilə Fransa arasında hərbi əlaqələrin gücləndirilməsinə xidmət edən görüşdə regiondakı hərbi-siyasi vəziyyət, beynəlxalq və regional təhlükəsizlik problemləri, eləcə də əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Qoşunların qarşıdurma xəttindəki hazırkı vəziyyət barədə diplomata məlumat verən Müdafiə naziri vurğulayıb ki, Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı tutduğu qeyri-konstruktiv mövqe regional təhlükəsizliyə ciddi təhdiddir. Nazir xüsusi qeyd edib ki, məsələnin həlli yolu beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərini yerinə yetirməyə məcbur edilməsidir.

Müdafiə sahəsində ikitərəfli münasibətlərin əhəmiyyətini qeyd edən general-polkovnik Zakir Həsənov Azərbaycan ilə Fransa arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın mövcud vəziyyətini yüksək qiymətləndirib.

Öz növbəsində xanım O.Buşez Fransanın Azərbaycan ilə müdafiə sahəsində birgə layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirib. Səfir bu proqramların vacibliyini xüsusi vurğulayıb.

Görüşdə tərəflər Fransanın müdafiə məhsulları istehsal edən bir sıra şirkətləri tərəfindən Azərbaycanda həyata keçirilən müxtəlif layihələrin hazırkı vəziyyətini, eləcə də müdafiə və təhlükəsizlik sahələrində qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto
Natiq İSAYEVİNDİR**

# Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib



*Martın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının körfəz məsələləri üzrə dövlət naziri Tamer Al-Sabhanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə naziri Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əlaqələrin genişləndirilməsində ölkə rəhbərlərinin görüşlərinin mühüm rol oynadığını və bu münasibətlərin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında hərbi sahədə əməkdaşlığın vacibliyini qeyd edən dövlət naziri T.Al-Sabha bunun üçün geniş potensialın olduğunu bildirib.

Tərəflər, həmçinin regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

# Azərbaycan ilə Böyük Britaniya arasında hərbi əməkdaşlıq Planı imzalanıb

*Martın 9-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası və Böyük Britaniya müdafiə nazirlikləri arasında Qərargah danışıqları keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığın cari vəziyyəti, perspektiv istiqamətləri nəzərdən keçirilib, təlim, təhsil, sülhməramlı əməliyyatlar üzrə əməkdaşlıq, eləcə də regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Danışıqların yekunu olaraq "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Birləşmiş Krallığın Müdafiə Nazirliyi arasında 2017-2018-ci maliyyə ili üçün hərbi əməkdaşlıq Planı" imzalanıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 mart 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 124 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Vazaşen, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Koxanəbi, Ağdam və Əlibəyli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Yarımca, Çiləbürt, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Baş Qərvənd, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Veysəlli, Qorqan, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Ön xətdən reportaj*

# Məqsəd tezliklə qələbəmizi təmin etməkdir

*Qədim tarixi, varı-dövləti, mədəniyyəti, musiqisi ilə düşmənlərimizin gözlərini qamaşdıran ana yurdumuzun dilbər guşələrindən birinə - Qarabağa səfər edirik. Səhərin təmiz havasından hiss edirik ki, Qarabağdayıq, yaz gəlir, təbiət oyanmaq üzrədir. Torpağın ətri də yazın gəlişindən xəbər verir. Təbiətin gözəlliyini qəlbimə köçürə-köçürə heyrətlənirəm. Qarabağ! Ana torpağım! Dünyaya göz açdığım, gözəlliyində çiçəklərin qoxusu, bulaqlarının şırıltısı, hər qayasında, daşında tarixlərin gözü olan diyar... Hər zaman düşünürəm, xəyala dalıram ki, bəlkə də ilahi bir səsin möcüzəsindən yaranan torpaqdı Qarabağ!*





...Maşınla zabit Ramil Əhmədovun müşayiəti ilə yol gedirik. Bu yoldan kimlər keçməyib?! Radioda həzin bir musiqi səslənir, könlümüzü oxşayır. Xanın səsinin təsiri altında xəyalən də olsa, Qarabağı gəzmək nəsibimiz olur. Xan oxuyur:

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan.*
*Axşamüstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi...*

Bu misralarla xəyalımda bir-bir o yerləri gəzməyə başladım - Şahbulaq dağı, Natəvan xanımın imarəti, Pənah xanın məqbərəsi, məşhur Çay evi, Cıdır düzü, Əsgəran qalası - hamısı bir-bir xəyalımda canlandı.

Sevinirəm və şükür edirəm Allaha ki, xalqımıza belə istedadlar qismət edib. Bu səs torpaqdır, səngərdir, sərhəddir, əsgərdir. O səs düşmənə səslənərək deyir: "Mən bu torpaqda doğulan igidlərin səsiyəm".

Ecazkar səsin təsir dairəsindən çıxmamış ön xəttə gəlirik.

Dayaq məntəqəsində baş leytenant Allahşükür Şahbazov bölmənin yerləşdiyi coğrafi məkan və döyüş tapşırığı haqqında məlumat verdi. Öyrənirik ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və ordunun digər rəhbər şəxsləri fevralın 2-də bu mövqelərdə olub. Müdafiə naziri bölük komandirini və 4 əsgəri - Eləddin Qurbanovu, Şahlıq Mirzəyevi, Nail Sultanovu, Pərviz Aslanovu qiymətli hədiyyələrlə mükafatlandırıb. Bölük komandiri ilə söhbətimiz zamanı bildirdi ki, bu, həyatında aldığı ən gözəl hədiyyədir. "Hər zaman Azərbaycan dövlətinə xidmət etməyə hazıram və ordumuzun bir əsgəri olaraq bu hədiyyədən, bu diqqətdən böyük şərəf və qürur duyuram."

Baş leytenant Allahşükür Şahbazov səngərə gedən şəxsi heyətə təlimat vermək məqsədilə bizimlə söhbəti yarımçıq kəsir. Zabitlə birlikdə əsgərlərə yaxınlaşırıq. Zabit təlimata başlayır: "Yoldaş əsgərlər, indi hamı döyüş növbətçiliyinə cəlb olunur. Bu gün səngərdə - ön xətdə xalqın müdafiəsi üçün dayanmış əsgər və zabitlərimizin məqsədi, vəzifəsi birdir - Azərbaycan xalqının qələbəsini təmin etmək! Üçrəngli dövlət bayrağımızı bütün Azərbaycan ərazisində dalğalandırmaq! Bunun üçün döyüş növbətçiliyində şəxsi heyət diqqətli, ayıq-sayıq olmalı, tələb olunan qaydalara düzgün əməl etməlidir. Növbətçi həmişəki kimi, müşahidə aparır, postda həyəcan komandası verilərsə, hər kəs öz yerini tutur və növbəti komandalara hazırlıq görülür".

Taqım komandiri leytenant Kazım Əlibəyov isə bildirdi ki, səngər təkcə düşmənlə üzüzə dayandığımız sığınacaq deyil. "Səngər Vətənin yarası, sızıldayan yeridir. Bu gün arzuladığım həyatı yaşayıram. Ən gözəl xatirələrim səngərlə bağlıdı".

Səngərdə ilk tanış olduğumuz əsgər 5 aydı Lənkəran rayonundan hərbi xidmətə gələn Cəmil Abbaslı oldu.

- Ata-babalarımızdan əmanət olan, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu qoruya bilmək və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq, - deyə əsgər Cəmil Abbaslı bildirdi.

Əsgər Elvin Səfərzadə silahdaşının sözünü təsdiqləyərək, Vətən, şəhidlərimizin uğrunda can verib, qanlarıyla suladığı, mənəviyyatı, dili, bayrağı, mədəniyyəti və əxlaqı bir olan millətimizin üzərində yaşadığı torpaq parçasıdır: "Vətəni müdafiə etmək vəzifəsini qarşısına məqsəd qoyan hər bir kəs bu yolda canını fəda etməkdən də çəkinməməlidir".

Əsgər Mircavid Abdullayev isə ali təhsil aldıqdan sonra həyatında ən vacib borcunu yerinə yetirdiyini bildirdi. Aprel döyüşlərini yada salan həmsöhbətim qohumlarından birinin həmin döyüşlərdə həlak olduğunu dilə gətirdi. "Ən böyük arzum bütün şəhidlərimizin qisasını düşməndən almaqdır. Aprel döyüşləri ordumuzun güc və bacarığını düşmənə sübut etdi. Düşmən bildi ki, onun qarşısında daha güclü, daha hazırlıqlı bir ordu dayanıb."

- Xocalı faciəsi, ondan heç də geri qalmayan digər faciələrimiz bizə rahatlıq vermir və verməməlidir, - deyə başqa bir əsgər - Yusif Adıgözəlov qeyd etdi. - Bu gün düşmənlə üzüzə səngərdə sinəmi Vətənə sipər etməyimdən qürur hissi keçirirəm.

Əsgərlərlə söhbətimizi müəyyən zaman kəsiyində yarımçıq qoyub mövqeləri diqqətlə nəzərdən keçiririk. Düşmənin yerləşdiyi ərazilərə ürək ağrısı ilə baxmamaq mümkün deyil. Divarları qalmış iki tikilidə və əlavə bir sığınacaqda yerləşmiş düşməni müşahidə etmək, əlbəttə, sevincli ola bilməz. Həmin zaman gözümün önünə vaxtilə bu evdə məskunlaşmış azərbaycanlı ailəsi gəlir. Xoşbəxt insanlar yazın gəlişini qeyd edir... Çərşənbə axşamı ocaq qalayıb, "ağrılığım, uğurluğum bu ocağın üstünə" deyirlər, evin xanımı səməni qoyur, cavan qızlar xoş söz eşitmək üçün qapı pusurlar. Süfrədə çörəyimizi yeyib, torpağımıza göz dikən düşmənə intiqam hissim qəlbimi kükrədir. Axı minlərlə vətəndaşımız neçə vaxtdır doğma ocağında bayram tonqalı qalamır. Qarşı tərəfə baxa-baxa düşünürəm ki, tezliklə düşməni geri qovacağıq. Öz torpaqlarına ona görə demədim ki, məskunlaşdıqları, guya öz torpaqları hesab etdikləri indiki Ermənistan dövlətinin ərazisi belə Azərbaycanın tarixi torpaqlarıdır. Bu namərdləri hara qovasan, hansı dövlətin ərazisinə qovasan?

Qaradağ rayonundan olan tuşlayıcı əsgər Cəfər Mikayılov deyir: "Ermənilər də yaxşı bilir ki, aprel zəfəri Azərbaycan əsgərinin son zəfəri deyil. Bu zəfərlərin tezliklə davamı gələcək. Əsgər Şahin Kərimov və Kənan Cəfərov da Cəfərin fikrini təsdiqlədilər və bildirdilər ki, Ağdamda, Xankəndidə, Şuşada Qələbənin sevincini insanlara yaşatmağa tam hazırıq.

Bəli, Azərbaycan əsgəri! Sizin kimi mətin oğullarımıza güvənən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov da çıxışlarının birində deyib: "Üçrəngli bayrağımızın tezliklə Xankəndi, Şuşa, Laçın və işğal altında olan digər torpaqlarımızda dalğalanacağı heç kimdə şübhə doğurmamalıdır. Biz buna Ali Baş Komandanımızın rəhbərliyi altında birlikdə nail olacağıq".



**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinə ərizə qəbulu başlayır

*Aprelin 1-dən 2017-2018-ci tədris ili üçün xüsusi təyinatlı hərbi təhsil müəssisələrinə - Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinə, Hərbi Tibbi Məktəbinə və hərbi liseylərə ərizə qəbulu başlayır.*

*Qəbul iki mərhələdə aparılacaq. Birinci mərhələdə abituriyentlər həmin təhsil müəssisələrində təşkil olunan həkim komissiyalarından keçməli, sonrakı mərhələdə isə müəyyən edilən fənlərdən Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən test imtahanını verməlidir.*

*Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olmaq istəyən namizədlər aprelin 1-dən etibarən ərizə ilə müəssisə rəhbərinə müraciət etməlidir.*

*Qəbul qaydaları ilə bağlı daha ətraflı məlumatı aşağıdakı linkdən əldə etmək olar.*

http:mod.gov.azaznewsherbi-qulluqcu-hazirlayan-xususi-teyinatli-tehsil-muessiselerine-qebul-qaydalari-11163.html

## 2017-2018-ci tədris ili üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə kursant qəbulu qaydaları

**I. Ümumi müddəalar:**
Tədris dili: Azərbaycan dili;
Təhsil forması: əyani;
Təhsil müddəti: 4 il;
İxtisas bölgüsü: 1-ci kursun əvvəlində;
Yaş həddi: cari ildə mülki ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirmiş, 15 sentyabr 2017-ci ilə qədər 17 yaşı tamam olan və 19 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 120 AZN məbləğində müavinət alırlar. Təhsili və fərdi intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə qanuna müvafiq qaydada əlavələr edilir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarına hərbi ixtisaslarla yanaşı, müvafiq mülki ixtisas üzrə bakalavr dərəcəsi də verilir.

**II. Sənədlərin qəbulu:**
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2017-ci il tarixdən ərizə ilə məktəbin rəisinə müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- məhkumluğu barədə arayış;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Məktəbə "Təyyarəçilik" ixtisası üzrə daxil olmaq istəyənlər yuxarıda göstərilmiş sənədlərdən əlavə olaraq nəcisdə helmintlərin yumurtalarının və lyambliyaların sistlərinin müayinəsinə dair tibbi sənəd də təqdim etməlidirlər.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən şəxsən təqdim edilir.

**III. Ali Hərbi Məktəblərə qəbul iki mərhələdə həyata keçirilir:**
Namizədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.

Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasından Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən I ixtisas qrupu üzrə test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:
- Azərbaycan dili;
- riyaziyyat;
- fizika;
- kimya;
- xarici dil.

Namizədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı əsasında qəbul edilirlər.

**Qeyd:** Təhsil haqqında sənəd təqdim etməyən namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarına buraxılmırlar.

Sənədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində qəbul olunur (ünvan: Bakı şəhəri, Admiral Naximov küçəsi, 18. Əlaqə telefonu: 479-78-40).

Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 544-00-15, 544-00-16).

Test imtahanının tarixi əlavə olaraq bildiriləcək.

# Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə qəbul qaydaları

*Hərbi həkim işi ixtisası üzrə 2017-2018-ci tədris ili üçün qəbul qaydaları*

**I. Ümumi müddəalar:**
Tədris dili: Azərbaycan dili;
Təhsil forması: əyani;
Təhsil müddəti: 6 il;
Yaş həddi: cari ildə mülki ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirmiş, 15 sentyabr 2017-ci ilə qədər 16 yaşı tamam olan və 19 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər. Hərbi Tibb Fakültəsinə qəbul olan şəxslər ödənişsiz əsaslarla təhsil alırlar.

**II. Sənədlərin qəbulu:**
Hərbi həkim işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2017-ci il tarixdən ərizə ilə fakültə rəisinə müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən ) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- məhkumluğu barədə arayış;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd, tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən şəxsən təqdim olunur.

**Qeyd:** Namizədlər istənilən səbəbdən Hərbi Tibb Fakültəsində təhsil almaqdan imtina etdikləri halda, Azərbaycan Tibb Universitetindən xaric ediləcəkləri barədə öhdəlik götürürlər.

**III. Hərbi Tibb Fakültəsinə qəbul iki mərhələdə həyata keçirilir:**

Namizədlər Hərbi Tibb Fakültəsində hərbi həkim komissiyasından keçməlidirlər.

Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasından Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Hərbi həkim işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən IV ixtisas qrupu üzrə test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:
- Azərbaycan dili;
- biologiya;
- kimya;
- fizika;
- riyaziyyat.

Namizədlər Hərbi Tibb Fakültəsinə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı əsasında qəbul edilirlər.

Sənədlər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində qəbul olunur (ünvan: Bakı şəhəri, Ceyhun Səlimov küçəsi, 3. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərazisi. Əlaqə telefonu: 541-13-36).

Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu 544-00-15, 544-00-16).

Test imtahanının tarixi əlavə olaraq bildiriləcək.

# Hərbi Tibb Məktəbinə 2017-2018-ci tədris ili üçün qəbul qaydaları

**I. Ümumi müddəalar:**

Tədris dili: Azərbaycan dili;
Təhsil forması: əyani;
Təhsil müddəti: 2 il;

Yaş həddi: cari ildə mülki ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirmiş, 15 sentyabr 2017-ci ilə qədər 17 yaşı tamam olan və 19 yaşı tamam olmayan, habelə müddətli həqiqi hərbi xidmət keçmiş 23 yaşına qədər hərbi vəzifəli Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

Hərbi Tibb Məktəbinə qəbul olan şəxslər təhsil müddətində bütün təminat növlərilə təmin olunur və ayda 154 AZN məbləğində müavinət alırlar.

**II. Sənədlərin qəbulu:**

Hərbi Tibb Məktəbinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2017-ci il tarixdən ərizə ilə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi rəisinə müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- məhkumluğu barədə arayış;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd, tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən şəxsən təqdim edilir.

**III. Hərbi Tibb Məktəbinə qəbul iki mərhələdə həyata keçirilir:**

Namizədlər Silahlı Qüvvələrin Baş Klinik Hospitalında hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.

Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasından Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Hərbi Tibb Məktəbinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:

- Azərbaycan dili;
- kimya.

Sənədlər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində qəbul olunur (ünvan: Bakı şəhəri, Ceyhun Səlimov küçəsi, 3. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərazisi. Əlaqə telefonu: 541-13-36).

Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu 544-00-15, 544-00-16).

Test imtahanının tarixi əlavə olaraq bildiriləcək.

# 2017-2018-ci tədris ili üçün Müdafiə Nazirliyinin Hərbi Liseylərinə kursant qəbulu qaydaları

**I. Ümumi müddəalar:**

Tədris dili: Azərbaycan dili;
Təhsil forması: əyani;
Təhsil müddəti: 3 il;

Yaş həddi: 15 sentyabr 2017-ci ilə qədər 14 yaşı tamam olan və 16 yaşı tamam olmayan, ümumtəhsil müəssisələrinin 8-ci sinfini bitirmiş Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

Hərbi liseylərə qəbul olan kursantlar təhsil müddətində bütün təminat növlərilə təmin olunur və ayda 46 AZN məbləğində müavinət alırlar.

**II. Sənədlərin qəbulu:**

Hərbi liseylərə qəbul olmaq istəyən namizədlər 1 aprel 2017-ci il tarixdən 31 may 2017-ci il tarixədək ərizə ilə hərbi liseyin rəisinə müraciət etməlidirlər.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- oxuduğu sinfin 1-ci yarımilinin qiymət cədvəli;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- sinif rəhbəri tərəfindən yazılmış və məktəb direktoru tərəfindən təsdiq edilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- burunətrafı boşluqların rentgenoqrafiyası;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- nəcisdə helmintlərin yumurtalarının müayinəsinə aid tibbi sənəd;
- dizenteriya qrupuna aid müayinə, əsnəkdən və burundan difteriya çöplərinin aşkar edilməsi üçün müayinə;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olub-olmaması barədə məlumatlar, ambulator xəstənin tibbi kartı (olunmuş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibbi kartından çıxarışlar (forma №27 U), rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibb kartası - forma №26 U).

Doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin əsli namizəd tərəfindən şəxsən təqdim olunur.

**III. Hərbi Liseylərə qəbul iki mərhələdə həyata keçirilir:**

Birinci mərhələdə namizədlər müraciət etdikləri hərbi liseydə hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.

Hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçən namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldurur, şifrə və iş nömrəsini çap edir, sonra həmin şifrə və iş nömrəsi ilə hərbi liseyin Sənəd Qəbulu Komissiyasına gələrək elektron ərizə formasını təsdiq etdirirlər. Namizədlər qəbul imtahanlarının başlama tarixinə 3-5 gün qalmış hərbi liseyin Sənəd Qəbulu Komissiyasından imtahana buraxılış vərəqəsi alırlar.

İkinci mərhələdə namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:

- Azərbaycan dili;
- riyaziyyat;
- fizika;
- kimya.

Namizədlər hərbi liseylərə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı əsasında qəbul edilirlər.

Sənədlər C.Naxçıvanski adına Hərbi Liseydə qəbul olunur (ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi. Əlaqə telefonu: 538-83-76, 538-83-75).

Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 544-00-15, 544-00-16).

Elektron ərizələrin doldurulma, imtahana buraxılış vərəqəsinin verilmə, imtahanların başlama tarixləri barədə məlumatlar Dövlət İmtahan Mərkəzinin internet saytında və kütləvi informasiya vasitələrində elan olunur.



*Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) "Hərbi hissələrdə əsgərlərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi işinə vətəndaş cəmiyyətinin dəstəyi" layihəsi çərçivəsində "N" hərbi hissəsində ilk tədbirini keçirib.*

# Əsgərlərin vətənpərvərlik tərbiyəsinə dəstək

AZƏRTAC xəbər verir ki, AVCİYA-nın vitse-prezidenti Elçin Salmanov tədbirdə çıxış edərək assosiasiyanın fəaliyyəti, icra etdiyi layihələr, o cümlədən informasiya savaşında əldə edilən nailiyyətlər barədə iştirakçılara məlumat verib.

Sonra AVCİYA-nın eksperti, tarix üzrə fəlsəfə doktoru, dosent Məhərrəm Zülfüqarlı "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi: 2016-cı ilin aprel döyüşləri" mövzusunda məruzə ilə çıxış edib.



Tədbirdə AVCİYA prezidenti Elxan Süleymanovun "Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri" kitabı, habelə assosiasiyanın bir sıra nəşrləri hərbi hissəyə təqdim edilib, əsgər və zabitləri maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Azərbaycan orta əsrlərdə. Azərbaycan Səfəvilər dövləti.

*İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası; ölkədaxili siyasi-iqtisadi vəziyyət; dövlət quruluşu və hərbi qüvvələr.**

**2. Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması.**

**3. Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər.**

**4. XVIII əsrdə Azərbaycanda daxili siyasi vəziyyət.**

**5. XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi.**

### *XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası; ölkədaxili siyasi-iqtisadi vəziyyət; dövlət quruluşu və hərbi qüvvələr*

XV əsrin sonları - XVI əsrin başlanğıcına doğru Azərbaycanda bir sıra müstəqil feodal dövlətləri yaranmışdı ki, onlardan ən mühümü Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ərazisi Cənubi Azərbaycanı və Qarabağı, şimalda Kür çayına qədər Gəncə və Şəmkiri əhatə edirdi.

Qaraqoyunlu və Ağqoyunlu dövlətləri aparatında Azərbaycan tayfalarının hərbi-feodal əyanları - baharlı və bayandırlı tayfaları əsas rol oynayırdılar. Hər iki sülalənin dövlət başçıları "padşah" titulu daşıyırdılar. Şirvanda isə dövlət hakimiyyəti feodal əyanlarına mənsub idi. Şirvan dövlətinin başçıları özlərini "şah" adlandırırdılar.

Hakim sülalənin üzvlərindən və ya məşhur əmirlərindən təyin olunan ordunun baş komandanı Əmir - ül Üməra (əmirlər əmiri) titulunu daşıyır, padşahdan sonra birinci şəxs sayılırdı. Hərbi qüvvələr padşahın xüsusi və vilayət canişini qoşunlarından ibarət idi. Hər ikisi Azərbaycanın feodal qoşun hissəsini təşkil edirdi. Komanda heyəti feodal əyanlarından seçilirdi. Orduda ali rütbəli şəxs əmir adlanırdı. Vilayətlərdə əmirlərin sırasından böyük əmirlər ayrılırdı. Bunların da ordunun rəhbər heyətində xüsusi yeri vardı. Kiçik rəislər qibtaul adlanırdılar. Ordunun sıravi tərkibi zireh geymiş süvarilərdən - puşandarlar, tirkətbən - oxatanlar, xidmətçilərdən ibarət idi.

### *Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması*

Feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olurdu. Ağqoyunlu şahzadələri arasında ara müharibələri, feodal hakimlərin özbaşınalığının artması kənd təsərrüfatı və sənətkarlığın tənəzzülünə səbəb oldu, şəhər və kənd əməkçilərinin vəziyyətini ağırlaşdırdı. Feodal pərakəndəliyi həmçinin yadellilərə qarşı mübarizədə xalqın birliyinin yaranmasına mane olurdu. Odur ki, Azərbaycanı siyasi cəhətdən birləşdirmək zərurəti artıq meydana çıxmışdı. Bu birləşmə Azərbaycan əhalisinin geniş kütlələrinin mənafeyinə uyğun gəlirdi. Yalnız belə bir dövlət yaratmaqla feodal pərakəndəliyini aradan qaldırıb Azərbaycanın müstəqilliyini qorumaq olardı. Bu vəzifəni isə XIII yüzilliyin sonunda Azərbaycanın Ərdəbil şəhərində yaşamış Səfəvilər sülaləsinin yaratdığı Səfəvilər hakimiyyəti həyata keçirməyə başladı.

Bu mübarizə Şeyx Səfiəddindən sonra sülalənin görkəmli başçıları, o cümlədən Şah İsmayılın (1487-1524) dövründə kəskin xarakter aldı. Beləliklə, Səfəvilərin Ərdəbil hakimliyindən sonrakı dövrünü onların Azərbaycanın siyasi həyatında mühüm rol oynaması, bütün Azərbaycanda hakimiyyətin yaranması və möhkəmlənməsi dövrü kimi qiymətləndirmək olardı. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu hərbi yürüşlər keçirərək böyük qənimətlər əldə edir və öz mövqelərini möhkəmləndirirdilər. Əsrin II yarısında artıq Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan torpaqları onların təsiri altına düşmüşdü.

Səfəvilərin hakimiyyəti Şah İsmayılın dövründə daha da gücləndi. Onlar kütləni öz tərəflərinə cəlb etmək üçün ədalətli qərarlar vəd edirdilər. Təkcə Ərzincan səfəri ərzində İsmayılın bayrağı altına müxtəlif tayfalardan 7 min qazi toplaşdı. Bu müşavirədə Səfəvilər birinci zərbəni Şirvanşahlara vurmaq qərarına gəldilər. Çünki əks halda, yeni Təbrizə hücum etməklə dərhal üç düşmənlə - Ağqoyunlu Əlvənd Mirzə və Muradla, habelə onları müdafiə edən Şirvanşah Fərrux Yasarla üzləşməli olardılar. Beləliklə, 1500-cü ilin payızında qızılbaşlar (səfəvilər) Kürü keçib Şirvan ərazisinə daxil oldular. Şirvanın paytaxtı tutuldu, Fərrux Yasarın başı kəsildi, qızılbaşlar Şirvanşahların böyük sərvətini ələ keçirdilər. Sonra İsmayıl Bakı üzərinə yeriyərək onu ələ keçirdi. Ağqoyunlu Əlvənd Mirzə bundan bərk narahat oldu. O, İsmayılın cənuba doğru hərəkətinə nə qədər mane olmağa çalışsa da, buna müyəssər olmadı. 1501-ci ilin ortalarında Naxçıvan ərazisində onlar arasında həlledici döyüş baş verdi. Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti göstərərək qələbə qazandı.

Həmin qələbədən sonra, 1501-ci ilin payızında İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azərbaycan türkü idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə olunurdu.

Şah İsmayılın qələbələri çoxlarını narahat edirdi. Bəzi feodallar, hakimlər siyasi həyatda müstəqillik və hakimiyyət iddiası ilə çıxış edirdilər. Səfəvilər dövləti üçün təhlükəli düşmən - Murad padşah Həmədanda qoşun qalıqlarını toplayaraq qızılbaşlara zərbə endirməyə çalışırdı. Belə olduqda İsmayıl 12 min nəfərlik qoşunla Təbrizdən çıxaraq, Qızılüzən çayını keçib Həmədan yaxınlığına gəldi. 1503-cü il iyunun 21-də baş verən döyüş nəticəsində Muradın qoşunları məğlubiyyətə uğradı. Murad Şiraza qaçdı. İsmayıl onu təqib edərək İranın içərilərinə doğru irəlilədi və müqavimətsiz Şirazı ələ keçirdi. Beləliklə, Ağqoyunlu dövlətinin varlığına son qoyuldu. İsmayıl Əlvənd üzərində qələbə ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi.

### *Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər*

Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması Osmanlı Türkiyəsini narahat edirdi. Osmanlı İmperiyası Səfəvilərin düşməni olan Ağqoyunlu padşahına kömək edir, yeni dövlətin möhkəmlənməsinə mane olmağa çalışırdı. Lakin Türkiyə sultanı II Bəyazit Şah İsmayıla qarşı müharibəyə başlamağa cəsarət etməyərək, 1504-cü ildə bu dövləti tanımağa məcbur oldu. Bununla belə, Osmanlı feodalları Azərbaycanı və qonşu ölkələri ələ keçirmək iddialarından əl çəkmirdilər. Səfəvilər isə Gürcüstanı və Türkiyənin bir sıra şərq torpaqlarını özlərinə tabe etmək niyyətində idilər.

Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524-1576).

Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirmək cəhdlərindən əl çəkmirdi. Odur ki, qarşılıqlı hücumlar ara vermir, illərlə davam edirdi. Nəhayət, 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı. Bu sülhə görə, Qərbi Gürcüstan-İmeretiya, Menqreliya və Quriya Türkiyənin, Gürcüstanın şərq vilayətləri - Mesxi, Kartlı, Kaxetiya və indiki Ermənistan Səfəvilərin ixtiyarına keçdi. Lakin bu sülh uzun sürmədi. XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı. Bu vaxt Səfəvilər dövlətinin başında Məhəmməd Xudabəndə (1578-1587), Osmanlı dövlətinin başında isə Sultan II Murad (1574-1595) dururdu.

Beləliklə, 1586-1589-cu illərdə bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. Səfəvilər ərazilərinin qalan hissəsini itirməmək üçün sülhə razılaşdılar. 1590-cı ildə imzalanan İstanbul sülh müqaviləsinə görə, Azərbaycandan əlavə indiki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri Türkiyəyə verildi.

Səfəvilər dövləti tezliklə süquta uğradı.

### *XVIII əsrdə Azərbaycanda daxili siyasi vəziyyət*

Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan torpaqlarının parçalanması başlayır. Ayrı-ayrı ərazilərdə xanlıqlar yaranır. Belə bir dövrdə şimaldan yeni bir təhlükə yaranmağa başlayır. Rusiya öz ərazilərini genişləndirməyi, imperiya yaratmaq niyyətini büruzə verir. I Pyotrun hakimiyyətə gəlişi ilə Rusiyanın həyatında yeni dövr başlayır. Qafqaza, xüsusən də Azərbaycana maraq çoxalır. 1722-ci ilin yaz-payız aylarında I Pyotr Xəzəryanı vilayətlərə yürüş edir. Qoşunlar Dərbəndə daxil olur, 1723-cü ilin iyulunda isə Bakı qalası mühasirəyə alınaraq güclü həmlələrdən sonra təslim olur.

Azərbaycan xanlıqlarının birləşdirilməsi, torpaqların yadellilərdən müdafiəsi işində qubalı Fətəli xanın (1758-1789) o dövrdə göstərdiyi fəaliyyət diqqəti cəlb edir. Fətəli xan bu məqsədə çatmaq üçün hətta başqa bir dövlətin köməyindən istifadə etməyi və bəlkə onunla birləşməyi də istisna etmirdi. Bu isə bəzi xanlıqların xoşuna gəlmirdi. Fətəli xan isə belə bir hadisəyə hərbi-siyasi cəhətdən yanaşır və onu müsbət qiymətləndirirdi. O, öz məqsədinə çatmaq üçün birləşmiş Azərbaycan-Dağıstan qüvvələri ilə Gilana hücum edir, Ağa Məhəmməd şah Qacarın qoşunlarını məğlub edərək Rəşti alır.

Bu əməliyyatda bir neçə Azərbaycan xanlığı da iştirak edirdi. Quba, Dərbənd, Qarabağ, Talış, Bakı, Ərdəbil, Cavad və Şamaxı xanlıqları artıq dərk edirdilər ki, yadelli işğalçılara qarşı mübarizədə yalnız birlik hesabına qələbə qazanmaq olar. Bu zaman Rusiya yenidən baş qaldırır. 1796-cı ildə V.Zubovun komandanlığı altında rus qoşunları Azərbaycana hücum edir və Dərbənd, Bakı, Şamaxı, Gəncə, Salyan və Cavadı tutur. Bundan bərk narahat olan Türkiyə Rusiyaya öz etirazını bildirir və Krımı zəbt edəcəyini bəyan edir. Nəticədə rus qoşunları 1797-ci il yazında Azərbaycanı tərk edir.

### *XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi*

XIX əsrin əvvəllərindən başlayaraq Rusiya Azərbaycanın zorakılıqla işğal edilməsi planını həyata keçirməyə başlayır. Qazax və Borçalı qəzası, Car-Balakən torpaqları işğal olunur. Zaqatalaya hücum azərbaycanlılar tərəfindən dəf edilir. Gəncənin müdafiəsi də gərgin keçir. Vətənpərvər Cavad xanın başçılığı altında general Sisianovun qoşunlarına ciddi müqavimət göstərirlər. Yalnız qüvvələr tükəndikdən sonra şəhər işğala məruz qalır.

Azərbaycana maraqlarını gizlətməyən Rusiya və İran arasında da münasibətlər kəskinləşməyə başlayır ki, bu da 1804-cü il iyunun 10-da birinci Rus-İran müharibəsi ilə nəticələnir.

Gəncədən sonra Sisianovun qoşunları Şirvan üzərinə yeriyir və beləliklə, Şirvan xanlığı da işğal olunur. Vəziyyəti belə görən şuşalı İbrahim xan Qarabağ xanlığının könüllü olaraq Rusiyanın tərkibinə keçməsi barədə 1805-ci il mayın 14-də bu ölkə ilə müqavilə imzalayır. Razılaşmaya görə rusların 500 nəfərlik hərbi qüvvəsi Şuşa qalasına daxil olur. Bununla kifayətlənməyən Rusiya 1813-cü il yanvarın 1-də Lənkəran qalasına hücum edərək onu da ələ keçirir. Həmin il oktyabrın 12-də imzalanan Gülüstan müqaviləsinə əsasən, Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin birinci mərhələsi başa çatır. İranla müqayisədə get-gedə qüdrətlənən Rusiya tədricən Azərbaycanın digər xanlıqlarını da işğal edir. Beləliklə, 1828-ci il fevralın 10-da Rusiya və İran arasında Türkmənçay müqaviləsi imzalanır ki, bu da Araz çayı sərhəd olmaqla Azərbaycanın iki dövlət arasında bölüşdürülməsini başa çatdırır.

Beləliklə, cəmi 2-3 əsr əvvəl Yaxın və Orta Şərqdə böyük ərazilərə malik vahid Azərbaycan dövləti aramsız davam edən işğalçılıq müharibələri nəticəsində torpaqlarını get-gedə itirərək parçalanır və nəhayət, Şimali və Cənubi Azərbaycan şəklində iki dövlət arasında bölüşdürülür. Bir əsrə yaxın davam edən dövr ərzində şimalda güclü ruslaşdırma, cənubda isə farslaşdırma siyasəti həyata keçirilir. Lakin bu, Azərbaycan xalqının müstəqillik və istiqlaliyyət arzusunu qəlbindən çıxara bilmir.

XX əsrin əvvəllərində Rusiyada baş verən ictimai-siyasi hadisələr və xalqımızın vətənpərvər oğullarının səyi nəticəsində 1918-ci il mayın 28-də Azərbaycan öz siyasi müstəqilliyini dünyaya bəyan edir. Lakin cəmi 23 aydan sonra bu müstəqilliyə Sovet Rusiyası tərəfindən son qoyulur. Nəhayət, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində başlanan milli azadlıq hərəkatı xalqımızı yenə istiqlaliyyət yoluna çıxarır və 1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi ilə nəticələnir.

Respublikamız XXI əsrə gündən-günə qüdrətlənən, öz müstəqilliyini qorumağa qadir bir dövlət kimi qədəm qoyub və bu yolda uğurla irəliləyir. Amma müstəqilliyimizin ilk illərində torpaqlarımızın 20 faizi mənfur qonşu Ermənistan tərəfindən işğala məruz qalıb.

Lakin bu gün regionun aparıcı beynəlxalq subyektlərindən birinə çevrilmiş Azərbaycanda uğurlu iqtisadi, daxili və xarici siyasətin aparılması, ordumuzun gücləndirilməsi və ölkəmizin müdafiə qüdrətinin daha da möhkəmləndirilməsi imkan verəcəkdir ki, işğal edilmiş ərazilərimiz erməni qəsbkarlarından tezliklə və qeyd-şərtsiz azad edilsin.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Gənc zabitlərimiz

# Vətən sevgisi qəhrəmanlar yetirir



*Ermənistanın Azərbaycandan ərazi iddiası, Dağlıq Qarabağda başlanan qarşıdurma digər sərhəd bölgələrimizi də əhatə etdi, müharibə başladı. Nəticə etibarilə torpaqlarımızın 20 faizi işğal edildi. Bir milyon vətəndaşımız doğma ocağını tərk etməyə məcbur oldu.*

Ermənilər havadarlarının dəstəyi ilə 1992-ci il fevralın 26-da əsrin ən dəhşətli soyqırımını həyata keçirdi - Xocalıda qətliam törətdi. Yüzlərlə insan, o cümlədən qadın, uşaq, qoca qətlə yetirildi, əsir alındı...

Bunları görməyən yeniyetmələr nələr olduğunu valideynlərindən, müəllimlərindən eşitdilər. Olanlar onların da heysiyyətini silkələdi. Oğullar ordu sıralarına qatıldı.

Belələrindən biri də 1994-cü ildə Biləsuvar rayonunun Muğan kəndində anadan olan Ayaz Qorxmaz oğlu Cəfərli idi. Onunla Xocalı soyqırımının 25-ci ildönümü ərəfəsində döyüş postlarının birində həmsöhbət olduq.

Ayaz Cəfərli orta təhsilə Muğan kənd orta məktəbində başlayıb, sonra təhsilini Respublika Olimpiya liseyində davam etdirib. Həmçinin 5 ildən artıq peşəkar güləşlə məşğul olub. 4 dəfə Bakı çempionu olmaqla yanaşı, dəfələrlə mötəbər yarışların fəxri pilləsinə yüksəlib. Bütün bu nailiyyətlər və təhsilindəki uğurlarla yanaşı, Ayazın qəlbini sızladan, ürəyində sağalmayan bir yara vardı. Qarabağ yarası, Xocalı yarası... Vətənini sevən hər bir övlad kimi o da torpaq dərdi çəkirdi. Evdə valideynlərindən, məktəbdə müəllimlərindən soruşurdu: "Torpaqlarımız nə vaxt azad ediləcək? Qaçqınlar doğma el-obasına nə vaxt qayıdacaq?"...

Ayaz orta təhsilini başa vurduqdan sonra hərbçi olmaq qərarına gəlir. Atası Qorxmaz kişi övladının bu qərarından razı qalaraq sevinir, Vətənin dar günündə torpaqlarımızı qorumağa can atan övlad yetişdirdiyi üçün qürrələnir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Nümunəvi xidməti və çalışqanlığı ilə seçilir. Sülh danışıqları baş tutmazsa, torpaqlarımızı döyüşlə azad etməyin vacibliyini dərk edərək döyüş texnikalarının, atıcı silahların sirlərinə mükəmməl yiyələnir. Hərbi biliklərə yiyələnərək 2015-ci ildə zərli paqonları çiyninə taxaraq məzun olur.

Hərbçi kimi Vətənə daha böyük səmərə verəcəyini düşünən gənc, leytenant hərbi rütbəsilə ordu sıralarına qatılır. Ali hərbi təhsil aldığı illərdə o bir həqiqəti də öyrənmişdi: ömür xalq üçün, millət üçün, dövlət üçün yaşananda mənalı olur. O da bu amalla yaşayanların sırasındaydı artıq.

Ötən il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin hissələri təmas xəttindən kəndlərimizi, dinc sakinləri artilleriya atəşinə tutanda Silahlı Qüvvələrimiz əks-həmləyə keçdi. Döyüşlərdə leytenant Ayaz Cəfərli də var idi. O bir zabit kimi ordumuzun döyüş sınağında ilk dəfə iştirakçı olmağın qürurunu yaşayırdı.

Ayaz da bilirdi ki, hərbi mundiri məhz müqəddəs bir amal - Vətəni düşməndən qorumaq üçün geyinirlər. "Böyük qələbə mövqe qələbəsindən başlanır. Düşmən bilməlidir ki, bu torpaqlarda çox qala bilməyəcək. Ali Baş Komandanın dedikləri onlara dərs olmalıdır: ermənilər ölmək istəmirsə, rədd olub torpaqlarımızdan getsinlər"...

Ayaz da vətənpərvər oğullar kimi cəsarətlə döyüşdü. Ordumuzun qazandığı uğurlarda onun da payı vardı. Fəxri fərmanla təltif olunur. Leytenant Cəfərli deyir ki, bundan sonrakı həyatımın hər anını Vətən, xalq, millət üçün yaşamağa hazıram. "Ömür xalq üçün yaşanmalı, həyat Vətən üçün tamamlanmalıdır. Son qarış torpağımız azad olunmadan, son damla qanımı belə əsirgəməm."

Dağların zirvəsində də, yamacında da Vətən keşikçiləri var. Onları tanımaq, onlar haqqında yazmaq qürurvericidir. Əsgər və zabitlərimizin qəhrəmanlığından, Vətən sevgisindən yazmağa sözlər kifayət etmir. Anladığımız tək bir həqiqət var: Vətən sevgisi, isti-soyuq bilmədən düşmənlə üz-üzə dayanmaq, Vətənin dar gündə ölümün gözünə dik baxmaq.

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu", foto C.CƏFƏROVUNDUR**

Gənc əsgərlərin hazırlığı

# İlk sıra addımları



Sıra hazırlığı ilə məşğul olan şəxsi heyətə yaxınlaşırıq. Baş leytenant Vüsal Cəfərovun nəzarəti altında taqım və manqaların şəxsi heyəti müəyyən komandaları yerinə yetirirdi.

- Sıra hazırlığı bütün şəxsi heyətdə sıra vərdişlərinin yaradılması və onlarda dözümlülük qabiliyyətinin artırılması üçündür, - deyə baş leytenant Cəfərov bildirdi. - Bu istiqamətdə dərslər planlaşdırılır. Dərs cədvəlinə uyğun olaraq şəxsi heyət sıra meydanında göstərilən kateqoriyalar üzrə sıra hazırlığı keçir. Şəxsi heyət üzərinə düşən vəzifələri öhdəsindən layiqincə gəlməyə çalışır. Müşahidələr onu göstərir ki, məşğələlər səmərəli keçir. Mövcud əyani vəsaitlərdən, tədris imkanlarından yetərincə bəhrələnən zabitlər və manqa komandirləri təlim prosesində əsgərlərə hərbi bilikləri hərtərəfli öyrətməyə çalışırlar. Əsas məqsəd bütün heyətin döyüş ruhunun yüksəldilməsidir.

Sıra hazırlığı ilə bağlı söhbətimi taqım komandiri Seymur Yusifli ilə davam etdirirəm. Öyrəndim ki, o, 2009-2012-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə ilkin hərbi sirlərə yiyələnib. Zabit hesab edir ki, sıra hazırlığı əsgərdə intizam vərdişlərini artırmaq üçün ən çox istifadə olunan üsuldur. Başqa sözlə desək, əsgərin ruh yüksəkliyini artırmaq üçün metoddur. Sıra hazırlığında əsgər daha çox nizam-intizamı, rəislərə qarşı münasibətləri, sıradan çıxışları və sıraya qayıdışları öyrənir. Əsas məqsədimiz keçdiyimiz təlim-məşqlərin səmərəliliyini təmin etməkdir. Çünki yüksək hazırlıqlı əsgər döyüşdə düşməni məhv etməyə qadirdir.

Əsgər Yusif Əmirov dedi ki, Vətənə əsgər olmağıma çox sevinirəm. "Günlər keçdikcə biz ordu həyatına alışırıq. Sağ olsunlar, həm zabitlər, həm də çavuşlar ki, böyük zəhmətə qatlaşaraq bizə hərbi bilikləri öyrədirlər. Mən də söz verirəm ki, Vətənə şərəflə xidmət edəcəyəm".

Əsgərlərdən İlkin Sadıqov, Orxan Bayramlı, İsmayıl Rəşidov, İsgəndər Tahirli və başqaları da söhbət zamanı öz vəzifələrinin öhdəsindən layiqincə gələcəklərini, Vətənə sədaqətlə xidmət edəcəklərini bildirdilər.

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", foto çavuş N.PƏNAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ Suriyanın şimalında 400 dəniz piyadası yerləşdirib



İŞİD əleyhinə beynəlxalq koalisiyanın Amerika komandanlığı Suriyanın şimalında 400 dəniz piyadasının yerləşdirildiyini bildirib.

Bir qədər əvvəl Associated Press agentliyi Pentaqonun Rakka şəhərini terrorçulardan təmizləməkdə Suriya müxalifətinə yardım etmək məqsədi ilə bu regiona dəniz piyadaları və ağır artilleriya dislokasiya etdiyi barədə məlumat yayıb .

ABŞ Müdafiə Nazirliyi məlumatı təsdiqləyib. Eyni zamanda, bildirilib ki, ABŞ hərbçiləri döyüş əməliyyatlarında birbaşa iştirak etməyəcəklər. "Əl-Masdar" nəşri isə öz növbəsində Amerika dəniz piyadalarının hazırda "Suriya demokratik qüvvələri" adlanan müxalif kürd alyansına kömək etmək məqsədi ilə Rakka əyalətinin şimalında ön mövqelər hazırladığını bildirib. Bir qədər əvvəl ABŞ rəsmiləri Rakka uğrunda döyüşlərin hazırda Mosul şəhərində aparılan əməliyyatlara oxşar ssenari üzrə inkişaf edə biləcəyini deyib.

## Suriyada hava zərbələri nəticəsində on dörd mülki vətəndaş öldürülüb



Suriyanın şimalındakı Rəqqa şəhərində ABŞ hərbi hava qüvvələrinə məxsus qırıcıların açdığı atəş nəticəsində altı uşaq daxil olmaqla on dörd mülki vətəndaş öldürülüb.

Ölənlərin çoxu eyni ailədəndir. ABŞ hökuməti İŞİD-ə qarşı mübarizədə mülki vətəndaşların ölümünü maksimum dərəcədə azaltmaq üçün lazım olan bütün tədbirləri gördüyünü bildirib.

## Əfqanıstanda ölənlərin sayı 50 nəfərə yaxınlaşıb



Əfqanıstan paytaxtında hospitala hücum nəticəsində ölənlərin sayı 49 nəfərə çatıb, 76 nəfər yaralanıb.

Pajvak agentliyinin yaydığı məlumata görə, İŞİD yaraqlıları çərşənbə günü Kabildəki ABŞ səfirliyinin yaxınlığında yerləşən hərbi hospitala hücum ediblər. Əfqanıstan Müdafiə Nazirliyinin məlumatına görə, hücum edənlər dörd nəfər olub. Onlardan biri özünü hospitalın əsas girişində partladıb. Digər üç terrorçu binanın içərisinə soxularaq pasiyentləri və tibb personalını girov götürüb. Təhlükəsizlik qüvvələri bir neçə saat çəkən atışmadan sonra bütün yaraqlıları məhv edib.

## Rusiya Prezidenti 10 generalı istefaya göndərib



Rusiya Prezidenti Vladimir Putin Daxili İşlər Nazirliyi, Təhqiqat Komitəsi və Cəzaların İcrası üzrə Federal Xidmətinin 10 generalının istefaya göndərilməsi barədə Fərman imzalayıb.

İstefaya gedənlər arasında Rusiyanın Privoljye, Primorye, Nijni Novqorod və digər regionlarının məsul işçiləri, eləcə də Yəhudi Muxtar vilayətinin və Çuvaşiya Respublikasının prokurorları var.

## PKK-ya aid çoxlu sayda silah-sursat ələ keçirilib



Türkiyənin Şırnak vilayətindəki evlərin birinin zirzəmisində PKK terror təşkilatına aid çoxlu sayda silah-sursat tapılıb.

Silah-sursatı təhlükəsizlik xidmətinin əməkdaşları Barbaros məhəlləsindəki evdə axtarış apararkən tapıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan - qəhrəmanlar diyarı

*İnsana həyatda ən doğma şəxs onu dünyaya gətirən anadır. Məhz müqəddəsliyinə görə Vətəni də anamız kimi sevir, "Ana Vətən" deyirik. Vətən bizim varlığımız, fəxrimiz, qürurumuzdur. Vətən uğrunda, onun azadlığı yolunda canını qurban verən, şəhid olan qəhrəmanlar heç vaxt unudulmur, ölümsüzlüyə qovuşurlar.*

Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir. Vətənini, öz millətini, yurdunu, elini, obasını sevən hər bir insan qəhrəmandır. Onlar heç vaxt unudulmur. Məhz bu qəhrəmanlar sayəsində Azərbaycan xalqı azad-firavan bir ölkədə yaşayır. Xalqımız öz təbiəti, xarakteri etibarilə həmişə mülayim və sülhsevər olub. Heç kəsin torpağına göz dikməyib, kiməsə təcavüz etməyi özünə rəva görməyib. Qəhrəmanlarımız öz doğma yurdlarını qoruyub, lazım gələndə canlarını belə bu yolda qurban verməkdən çəkinməyiblər. Koroğlu, Qaçaq Nəbi, Həcər kimi yüzlərlə, minlərlə qəhrəman oğul və qızlarımız heç vaxt düşmənə baş əyməyərək dastanlara mövzu olub.

Son illər Azərbaycan torpaqları uğrunda mənfur düşmənin təxribatlarının qarşısını alarkən şəhid olmuş Mübariz İbrahimovu, Samid İmanovu, Fərid Əhmədovu, keçən il dekabrın 29-da düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olan Çingiz Qurbanovu və başqalarını misal göstərmək olar. Artıq onları da uşaqdan-böyüyə hər kəs tanıyır. İndi bu qəhrəmanlar gənclərin idealına çevrilib. Məktəblərdə onların vətənpərvərlik ruhu şagirdlərə - sabahın əsgərlərinə aşılanır. Cəmiyyətdə də belə tədbirlərin tez-tez izləyicisi oluruq. Hər kəsin dilində bir şüar var: torpaqlarımızı mütləq azad edəcəyik.



Şəhid Çingiz Qurbanovun ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi, Ali Baş Komandan İlham Əliyevin onun ailə üzvlərini qəbul etməsi şəhidlərə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Şəhidin ailəsiylə görüşdə Ali Baş Komandan demişdir: "Biz Çingizlə fəxr edirik. Bütün Azərbaycan Çingizlə fəxr edir. Bu bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əsgərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişdir". Ölkə başçısının dediyi bu sözlər bütün Azərbaycan gəncliyinə, Azərbaycan əsgərinə verilən qiymətin təzahürüdür. Azərbaycan əsgəri Vətənini sevir. Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrinə hazırdır.

Bu günün yeniyetməsi, çağırışçısı sabahın əsgəridir. Yeniyetmələrə, çağırışçılara Vətən naminə şəhid olanlarımız haqqında daha ətraflı məlumat vermək də, şəhidlərin ömür yolunu onların davam etdirəcəyini xatırlatmaq da vətənpərvərlikdir. Belə vətənpərvər gənclər cəmiyyətin bir hissəsi olan ordumuz üçün gərəklidir. Hər bir gəncin yüksək vətənpərvərlik ruhunda tərbiyə edilməsi cəmiyyətin ən müqəddəs borcudur. Ailə də, məktəb də məhz bu amalın icraçısı olmalıdır. Heç kim unutmamalıdır ki, Azərbaycan tarixən qəhrəmanlar diyarı olub, indi də belədir...

**Könül CƏFƏRZADƏ**

## Ərazilər partlamamış hərbi sursatlardan təmizlənir

Fevralda Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) mütəxəssisləri tərəfindən 1 milyon 368 min 831 kvadratmetr ərazi yoxlanılıb, mina və partlamamış hərbi sursatdan təmizlənib. Ay ərzində 1048 partlamamış hərbi sursat, tank əleyhinə 31 və piyada əleyhinə 3 mina aşkarlanaraq zərərsizləşdirilib.

ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təmizləmə işlərində 489 nəfərlik əməliyyat və 131 nəfərlik inzibati heyət iştirak edib. Həmçinin əməliyyatlara 6 mexaniki minatəmizləmə maşını və 34 minaaxtaran it cəlb olunub. Ümumiyyətlə, indiyədək cəmi 396 milyon 984 min 456 kvadratmetr ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, 756 min 894 mina və partlamamış hərbi sursat zərərsizləşdirilib.

Fevralda agentlik tərəfindən təmizləmə əməliyyatları Abşeron, Ağdam, Ağcabədi, Ağstafa, Beyləqan, Bərdə, Cəbrayıl, Füzuli, Gəncə, Lənkəran, Tovuz, Tərtər rayonlarında və eləcə də Qaradağ rayonunun Güzdək qəsəbəsində həyata keçirilib.

Ay ərzində bir mina və ya partlamamış hərbi sursat hadisəsi qeydə alınıb.

*Hərbi ənənələr, yeniliklər*

# T-90S tankı



Rusiya istehsalı olan T-90S tankı müasir atəşi idarəetmə sisteminə, davamlı zirehli mühafizəyə və yüksək manevrliyə malik olan döyüş maşınıdır. Onun əsas silahlanmasına 125 mm-lik top daxildir və avtomatik olaraq təchiz olunur. Döyüş dəsti özünə yüksək həcmə malik artilleriya atəşini daxil edir. Yerüstü və alçaq məsafədən uçan hədəflərə qarşı istifadə edilir.

12,7 mm-lik pulemyot qurğusu distansion naqillərdən istifadə etməklə hədəflərə atəş açmağa imkan verir.

Tankın üzərində avtomatlaşdırılmış atəşi idarəetmə kompleksi quraşdırılıb ki, onun köməyi ilə komandir və tuşlayıcı topdan, qoşa pulemyotdan və zenit qurğusundan gecə və gündüz, yerində və hərəkətdə olarkən atəş açа bilər.

T-90S tankı güclü mühafizəyə və davamlı hərəkət hissəsinə, su altında hərəkət etmək üçün cihazlanmaya malikdir. Döyüş maşınının çəkisi 46,5+2 ton, heyəti 3 nəfərdən ibarətdir. İdarəolunan raket silahlanma kompleksinə lazer şüası üzrə yarımavtomat idarəetmə sistemi daxildir. Atəşin maneədən qorunma uzaqlığı 100-5000 metr, orta sürəti saatda 40 kilometr, şose yolda maksimal sürəti saatda 60 kilometr təşkil edir. 1,2 metrlik dayaz, 0,85 metrlik divar, 2,8 metr dərinliyində olan xəndək maneələrini keçə bilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Misrəddin İsgəndərov şahmat üzrə Azərbaycan çempionatında liderlik edir

Bakıda kişilər arasında şahmat üzrə Azərbaycan çempionatı keçirilir. Çempionatda 24 şahmatçı, o cümlədən 4 qrossmeyster iştirak edir.

İki turdan sonra 2 xal toplamış beynəlxalq dərəcəli usta Misrəddin İsgəndərov çempionatda liderlik edir. Səkkiz şahmatçı - qrossmeysterlər Vüqar Rəsulov, Nicat Abbasov, Urfan Sevdimalıyev, beynəlxalq dərəcəli usta Nicat Ağayev, ustalığa namizəd Aydın Süleymanlı, habelə Fariz Əhmədov, Təbriz İdrisov və Zaur Bayramov ondan 0,5 xal geri qalır. 7 şahmatçının aktivində 1 xal var. İsveçrə sistemi üzrə keçən yarış 9 turdan ibarətdir.

## Futbol üzrə Azərbaycan millisi 2017-ci ildə ilk oyununu qələbə ilə başa vurub




Martın 9-da Doha şəhərindəki Əl-Sədd stadionunda futbol üzrə Azərbaycan milli komandası Qətər yığması ilə yoldaşlıq oyunu keçirib.

Millimizin start heyətində Səlahət Ağayev, Bədavi Hüseynov, Rəşad Sadıqov, Maqomed Mirzabekov, Tellur Mütəllimov, Qara Qarayev, Rahid Əmirquliyev, Cavid Hüseynov, Ağabala Ramazanov, Namik Ələskərov və Ruslan Qurbanov yer alıblar.

Oyunun ilk hissəsində hesab açılmayıb.

İkinci hissəyə daha fəal başlayan Azərbaycan millisi görüşün 52-ci dəqiqəsində istəyinə nail olub. Yoldaşlıq görüşündə hesabı Tərlan Quliyev açıb. Üç dəqiqə sonra Qətər millisi hesaba tarazlıq gətirib - 1:1. Görüşün 63-cü dəqiqəsində millimizin üzvü Araz Abdullayev yığmamızı hesabda önə çıxarıb. Komandaların cəhdlərinə baxmayaraq, oyunda hesab dəyişməyib.

Beləliklə, millimiz 2017-ci ildə keçirdiyi ilk rəsmi oyununda 2:1 hesablı qələbə qazanıb.

## Azərbaycan idmançısı qol güləşi üzrə "Arnold Challenge" turnirində gümüş medal qazanıb



Azərbaycanlı qol güləşçisi, Avropa çempionu Mirtaleh Aslanov ABŞ-ın Ohayo ştatının paytaxtı Kolumbus şəhərində keçirilən "Arnold Challenge" turnirində gümüş medal qazanıb.

Azərbaycan Qol Güləşi Federasiyasından bildiriblər ki, turnirdə uğurla çıxış edən Mirtaleh Aslanov finala qədər inamla irəliləyib. Təmsilçimiz yalnız finalda Maykl Todda uduzaraq gümüş medalla kifayətlənməli olub.

## Muay-tay üzrə Azərbaycan çempionatı keçirilib



Gənclər və İdman Nazirliyinin dəstəyi ilə muay-tay üzrə IX Azərbaycan çempionatı keçirilib.

Yarışın açılış mərasimində Azərbaycan Muay-tay Federasiyasının prezidenti Azər Həsənov, vitsa-prezident Tural Bayramov çıxış edərək idmançılara uğurlar arzulayıblar.

Çempionatda 229 idmançı 31 çəki dərəcəsində mübarizə aparıb.

Ölkə birinciliyinin əsas məqsədi idmançıların ustalıq dərəcəsini artırmaq və mayda Belarusda keçiriləcək dünya çempionatında Azərbaycanı təmsil edəcək komandanın tərkibini formalaşdırmaqdır.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 96
Nüsxə 4650